AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№338/5** **13 dekabr 2021-ci il**

"Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2022-ci il üçün Plan-qrafik"lərin təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin sədri N.Yusifovun təqdim etdiyi "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2022-ci il üçün 1 və 2 nömrəli Plan-qrafik"lərin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2022-ci il üçün 1 və 2 nömrəli Plan-qrafiklər" təsdiq edilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov), Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, fəaliyyətini dayandırmış auditor təşkilatları və sərbəst auditorlar yenidən fəaliyyətə başlamaq üçün Auditorlar Palatasına ərizə təqdim etdikləri hallarda onların fəaliyyətlərinin bərpası məsələsinə keyfiyyətə nəzarət üzrə plandankənar monitorinqlər aparıldıqdan sonra baxılsın.
3. Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, 2022-ci il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.
4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın və "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2022-ci il üçün 1 və 2 nömrəli Plan-qrafiklər"in auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
5. Palata sədrinin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bu qərarın və "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2022-ci il üçün 1 və 2 nömrəli Plan-qrafiklər"in mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

Şuranın sədri **Vahid Novruzov**